AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
12 SENTYABR 2018-ci il ÇƏRŞƏNBƏ № 202 (6235) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycanda dini icmaların maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycanda dini icmaların maddi-texniki təchizatının yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 400,0 (dörd yüz) min manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 sentyabr 2018-ci il.**

## Sabirabad rayonunun Dadaşbəyli-Çöl Ağaməmmədli-Xankeçən-Salmanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İyirmi iki min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Dadaşbəyli-Çöl Ağaməmmədli-Xankeçən-Salmanlı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 15,1 milyon (on beş milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 sentyabr 2018-ci il.**

# Azərbaycan və Xorvatiya strateji tərəfdaşlardır

### *Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz arasında çox fəal siyasi dialoq prosesi gedir və münasibətlərin inkişafı üçün güclü potensial mövcuddur*

**Azərbaycan və Xorvatiya arasında əməkdaşlığı inkişaf etdirmək üçün çox yüksək səviyyədə qarşılıqlı anlaşma mövcuddur və əlaqələrin dərinləşməsi üçün möhkəm hüquqi baza var. Bu, 2013-cü ildə Prezident İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri zamanı strateji tərəfdaşlıq və dostluq barədə imzalanan Bəyannamədir! Bu sənədin adı onun nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Bəyannamə əməkdaşlığın bütün sahələrini əhatə edir. Eyni zamanda Azərbaycan və Xorvatiya beynəlxalq təşkilatlar, BMT, ATƏT, Avropa Şurası çərçivəsində fəal əməkdaşlıq edirlər.**

Bu gün dünyada təhlükəsizliklə bağlı yeni çağırışların artdığı bir zamanda, iki ölkənin iqtisadi, enerji və digər sahələrdə, o cümlədən mədəniyyət, mədəni irs, millətlər və dinlər arasında anlaşma üzrə əməkdaşlıq imkanları böyük əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Xorvatiyaya yüksək səviyyədə keçən rəsmi səfərinin müsbət nəticələri də bu fikirləri təsdiqləyir. Rəsmi səfərin əhəmiyyətini vurğulayan cənab İlham Əliyev bildirib ki, bizim siyasi dialoqumuz çox fəal aparılır və prezidentlər səviyyəsində tez-tez görüşürük: "İki il bundan əvvəl xanım Prezident Azərbaycanda səfərdə idi. Səfər çox uğurlu keçmişdir və çox gözəl nəticələri olmuşdur. Keçən il biz bir beynəlxalq konfrans çərçivəsində görüşmüşük. Bu gün də mən Xorvatiyadayam. Bu, göstərir ki, siyasi dialoq çox fəaldır. Bu, onu göstərir ki, Xorvatiya və Azərbaycan doğrudan da strateji tərəfdaşlardır. Xanım Prezidentin qeyd etdiyi kimi, beş il bundan əvvəl Zaqrebdə bu barədə Bəyannamə imzalanmışdır. Strateji tərəfdaşlıq əlaqələrimiz genişlənir, güclənir. Bu gün bir çox məsələlər müzakirə olundu. Xanım Prezident bu barədə məlumat verdi. Öz tərəfimdən qeyd edim ki, biz Xorvatiya ilə daha böyük həcmdə ticarət əməliyyatları aparmaq istəyirik. Ticarət dövriyyəsinin nə həcmi, nə də strukturu bizi qane edə bilməz. Hesab edirəm ki, hökumətlərarası komissiya bu məsələ ilə bağlı çox ciddi fəaliyyət göstərəcək. Yaxın zamanlarda həm ticarət dövriyyəsinin artırılması, eyni zamanda, müştərək investisiya layihələri də icra edilə bilər".

Söz yox ki, Azərbaycan və Xorvatiyanın energetika sahəsində əməkdaşlığının önəmi daha böyükdür. Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının Bakıda keçirilən bütün son dörd ildəki toplantılarında Xorvatiya tərəfi də iştirak edib və Avropaya qaz nəqli ilə bağlı layihə üzrə iki ölkə arasında Anlaşma Memorandumu var. Azərbaycan bu layihədə lider ölkə olaraq çox mühüm rol oynayır. Yeri gəlmişkən, bu fakt Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq memorandumunda qiymətləndirilir və qeyd olunur. Məlumat üçün bildirək ki, dörd seqmentdən ibarət olan Cənub Qaz Dəhlizi layihəsi uğurla icra edilir. Bu ilin mayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu, iyun ayında isə TANAP layihəsi istifadəyə verildi.

Azərbaycan və Xorvatiyanın iqtisadiyyatın digər sektorlarının, kənd təsərrüfatının, turizmin, həmçinin xalqlar arasında əlaqələrin inkişafı ilə bağlı bir çox perspektiv planları var. İki ölkənin ortaq marağında olan bir çox məsələlər, o cümlədən regional və qlobal təhlükəsizlik məsələləri var. O cümlədən Avropa İttifaqı, NATO, BMT və digər təşkilatlar kontekstində birgə əməkdaşlığımıza dair məsələlər də mövcuddur. Xorvatiyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi çox aydındır. Rəsmi Zaqreb Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bəyan edir ki, bu münaqişə sülh və siyasi yolla həll olunmalıdır.

Azərbaycan Prezidentinin səfəri çərçivəsində imzalanan sənədləri yüksək qiymətləndirən xanım Kolinda Qrabar-Kitaroviç bunun ikitərəfli münasibətlərə yeni təkan verəcəyini vurğulayıb: "Bildiyiniz kimi, iqtisadi əməkdaşlıqla bağlı Azərbaycan ilə Xorvatiya arasında qarşılıqlı komissiya öz işini aparır. İşin əsas məqsədi ikitərəfli layihələr irəli sürməkdən, onları həyata keçirməkdən ibarətdir. Biz, həmçinin Bakıda bu komissiyanın son iclasını keçirmişik və istərdik ki, növbəti sessiya yaxın zamanlarda öz işinə başlasın. Təbbi ki, bu çərçivədə əczaçılıq və enerji sahəsinə xüsusi diqqət yetirməliyik. İnanıram ki, Xorvatiya digər sahələrdə də öz təcrübəsi ilə bölüşə bilər. Bu gün biz, bu əməkdaşlığın, həmçinin əczaçılıq sahəsində də genişləndirilməsi haqqında danışdıq. Bu sahədə şirkətlərimiz tərəfindən Xorvatiya ilə Azərbaycan arasında birgə müəssisə təsis edilə bilər. Bunun sayəsində bizim əczaçılıq şirkətləri üçün fürsət yaranacaq ki, onlar Mərkəzi Asiya və ümumiyyətlə, Xəzər hövzəsi regionuna çıxış əldə etsinlər, o cümlədən Azərbaycanda da fəaliyyət göstərsinlər. Təbii ki, bu da bizim aramızda ticari münasibətləri də inkişaf etdirəcəkdir".

Həm Avratlantik strukturlarla əlaqələrin, həm də ikitərəfli müstəvidə aparılan əməkdaşlığın iki ölkənin ortaq marağında olduğunu qeyd edən dövlət başçısı cənab İlham Əliyev bildirib ki, əməkdaşlığın bütün istiqamətləri üzrə yaxşı nəticələr olacaq, bunun üçün müvafiq göstərişlər verilib: "Əminəm ki, hökumətlərarası müştərək komissiya bütün bu göstərişləri vaxtında və yüksək səviyyədə icra edəcək".

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

## Dünya Səhiyyə Təşkilatının Azərbaycan üzrə yeni nümayəndəsi etimadnaməsini Xarici İşlər Nazirliyinə təqdim edib

**Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi səfir Pərvin Mirzəzadə Dünya Səhiyyə Təşkilatının Azərbaycan Respublikası üzrə yeni nümayəndəsi Hande Harmancı ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Hande Harmancı təyinatı ilə əlaqədar etimadnaməsini Pərvin Mirzəzadəyə təqdim edib. O, fəaliyyəti dövründə Azərbaycan ilə Dünya Səhiyyə Təşkilatı arasında münasibətlərin inkişafı üçün səylə çalışacağını diqqətə çatdırıb.

Pərvin Mirzəzadə Hande Harmancıya gələcək fəaliyyətində uğurlar arzu edib.

**AZƏRTAC**

# Milli Məclisin regional məsələlər komitəsinin payız sessiyasında ilk iclası keçirilib

**Sentyabrın 11-də Milli Məclisin regional məsələlər komitəsinin payız sessiyasında ilk iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Milli Məclisin 2018-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində komitədə görülən təşkilati işlər barədə hesabat dinlənilib.

Komitə sədri Arif Rəhimzadə bildirib ki, hesabat dövründə 3 iclas keçirilib, 4 məsələ müzakirə edilib. Bunlardan da biri qanun layihəsi olub. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi təqdim edilib, "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasına uyğun olaraq demokratik quruluşun əsaslarından biri olan yerli özünüidarəetmənin inkişafı, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması üzrə mühüm tədbirlər görülüb, bir sıra normativ hüquqi aktlar qəbul edilib. Hesabat dövründə komitənin ünvanına daxil olan 159 müraciətə, təklif, ərizə və şikayətə müvafiq qaydada baxılıb və onlardan 99-u araşdırılması üçün aidiyyəti təşkilatlara göndərilib.

A.Rəhimzadə komitənin 2018-ci ilin payız sessiyası üçün iş planından danışarkən bəzi qanunlara əlavə və dəyişikliklərin ediləcəyini deyib.

Deputatlar komitənin yaz sessiyası dövründə fəaliyyətini qənaətbəxş qiymətləndirib, payız sessiyasının iş planını təsdiqləyiblər.

Daha sonra gündəlikdəki digər məsələlər müzakirə edilib.

Əvvəlcə "Bələdiyyələrin status haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsinə baxılıb. Bildirilib ki, qəbiristanlıqların salınması və idarə olunması məsələlərində bələdiyyələrin üzərinə düşən vəzifələrin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilmədiyi hallarda məsuliyyət məsələsini təmin etmək məqsədilə sənədin 4-cü maddəsinə bəzi dəyişikliklər edilməsi təklif olunur.

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Qanunda edilən dəyişikliyə əsasən sənədin 8-ci maddəsinin 2-ci bəndinin üçüncü abzasında "Bələdiyyələrin ərazisində" sözləri "Bələdiyyələrin ərazisində qəbiristanlıqların salınması, saxlanılması, qorunması, idarə olunması, abadlaşdırılması və bələdiyyələrin ərazisində" sözləri ilə əvəz ediləcək.

"Reklam haqqında" Qanunda dəyişikliklər edilməsi barədə 2017-ci il 17 noyabr tarixli Qanunun tətbiqi ilə əlaqədar "Yerli (bələdiyyə" vergilər və ödənişlər haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyələrin statusu haqqında" qanunlarda bir sıra dəyişikliklər nəzərdə tutulur.

Sonra deputatlar gündəlikdəki məsələlərlə bağlı fikir və təkliflərini səsləndiriblər.

Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

**AZƏRTAC**

### *Məhəmmədəli Sədipur:*

## İran və Azərbaycan limanları arasında gəmi reysləri təşkil etmək olar

**İran ilə Azərbaycanın dəniz limanları arasındakı əlaqələrin inkişafı ticarət və turizm əlaqələrinin də artmasına imkan yaradar.**

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Limanlar və Dənizçilik Təşkilatının beynəlxalq əlaqələri üzrə baş idarəsinin rəisi Məhəmmədəli Sədipur deyib. Onun sözlərinə görə, Azərbaycanın Xəzər dənizi sahilindəki Bakı və Astara limanları ilə İranın Astara və Ənzəli limanları arasında gəmi reysləri təşkil etmək olar. Bu reyslərlə qarşılıqlı şəkildə vətəndaşların gediş-gəlişi asanlaşar.

"Dəniz nəqliyyatı ilə daha çox yükü tez bir zamanda çatdırmaq mümkündür. Məsafənin yaxınlığı və nəqliyyat xərclərinin ucuzluğu həm özəl, həm də dövlət sektoru üçün səmərəlidir. Bu istiqamətdə Azərbaycan tərəfi ilə danışıqlar aparılır", - deyə o əlavə edib.

Xatırladaq ki, Azərbaycandakı 5 dəniz limanı - Bakı, Hövsan, Dübəndi, Səngəçal və Ələt limanları Azərbaycan və İran arasında iqtisadi əlaqələrin inkişafı üçün əlverişli baza sayılır.

**AZƏRTAC**

# "Azərbaycan" brendi ilə ixrac olunan məhsulların coğrafiyası və çeşidi genişlənir

### *Cari ilin 6 ayında ölkəmizin ixrac dövriyyəsi 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artmışdır*

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müstəqil və demokratik dövlət quruculuğu kursu, həmçinin sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən yeni şəraitə uyğun uğurla davam etdirilir. Əvvəlki illərdə olduğu kimi, 2018-ci ilin birinci yarısında da iqtisadiyyatın dayanıqlı inkişafının təmin olunması məqsədilə çevik addımlar atılır, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi üçün kompleks islahatlar həyata keçirilir. Bunun nəticəsidir ki, son illər paytaxtımızla yanaşı, regionların da inkişafı sürətlənib, sosial layihələr uğurla icra olunur. Aparılan genişmiqyaslı islahatların bəhrəsi cari ilin 6 ayının statistikasında öz əksini tapıb. Belə ki, bu ilin birinci yarısında ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz artıb, inflyasiya birrəqəmli olmaqla 3 faiz təşkil edib. İqtisadiyyatın şaxələndirilməsində xüsusi rolu olan qeyri-neft sənayesində 8,8 faiz, kənd təsərrüfatında, 7,6 faiz, informasiya və rabitə xidmətlərində 4,5 faiz, ticarətdə 2,5 faiz artıma nail olunub.

Bu dövrdə ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulmuşdu. Xarici ticarət dövriyyəsi 35 faiz artmışdır. İxrac 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artmışdır. Altı ayda qeyri-neft sektoru üzrə ixrac 846,5 milyon dollar təşkil edib. Xarici ticarətin müsbət saldosu 4,2 milyard dollar olmaqla, ilin sonundək daha da yüksələcək.

Dövlətimizin başçısı Nazirlər Kabinetinin 6 ayın yekunlarına və qarşıda dura vəzifələrə həsr olunmuş iclasındakı nitqində qazanılan nailiyyətlər barədə deyib: "Son illər ərzində apardığımız islahatlar öz gözəl bəhrəsini vermişdir. Əgər biz bu islahatları aparmasaydıq, bu qədər böyük iqtisadi uğurlara çata bilməzdik. Ancaq hesab edirəm ki, indiki dövrdə biz bu islahatları daha da dərinləşdirməliyik. Elə etməliyik ki, Azərbaycan iqtisadiyyatı uzunmüddətli, gələcəkdə dayanıqlı iqtisadiyyat kimi özünü göstərsin, neftdən, qazdan asılılıq daha da aşağı düşsün və qeyri-neft sektorunun inkişafı sürətlə davam etdirilsin."

Azərbaycan iqtisadiyyatının qarşıdakı illərdə də sürətli inkişafı barədə beynəlxalq reytinq agentlikləri-"Moody"s və "Standart Poor" da nikbin proqnozlar vermişlər. Məsələn, "Moody"s agentliyinin hesabatında göstərilir ki, Azərbaycan iqtisadiyyatı 2018-ci ildə 1,5 faiz, 2019-cu ildə isə 3 faiz artacaq. Mütəxəssislərin fikrincə, indiki mürəkkəb geosiyasi və ağır iqtisadi vəziyyətdə 1,5 faiz artım yüksək göstəricidir. Çünki, 2010-cu ildən başlayan maliyyə-iqtisadi böhran dünya miqyasında bu gün də davam edir. Həmçinin, "Standard Poors" reytinq agentliyinin hesabatında bildirilir ki, Azərbaycan iqtisadiyyatı qarşıdakı 3 il ərzində hər il orta hesabla 3 faiz artacaq. Ayrıca 2019-2020-ci illərdə ölkəmizdə ümumi daxili məhsul istehsalının artımının 3,5 faiz səviyyəsində olacağı proqnozlaşdırılıb. Azərbaycan iqtisadiyyatına sərmayə qoyulmasının 2019-cu ildə 2,5 faiz artacağı gözlənilir.

**(davamı 3-cü səhifədə)**

# Bakıda İndoneziyanın müstəqilliyinin 73-cü ildönümü qeyd edilib





**Sentyabrın 11-də İndoneziyanın Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin 73-cü ildönümü ilə əlaqədar rəsmi qəbul təşkil edib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Qəbulda çıxış edən səfir Hüsnan Bəy Fənani İndoneziyanın keçdiyi inkişaf yolundan danışıb.

Ölkələrimiz arasındakı əlaqələrdən bəhs edən səfir münasibətlərimizin son illərdə daha da inkişaf etdiyini deyib. O əlavə edib ki, İndoneziya Azərbaycanı özünə dost və tərəfdaş hesab edir. Siyasi və iqtisadi əlaqələr yüksək səviyyədədir. İndoneziya və Azərbaycan arasında 30-dan çox yüksək səviyyəli səfərlər təşkil edilib. İndoneziya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanı birmənalı şəkildə dəstəkləyir.

Mədəniyyət naziri Əbülfəs Qarayev rəsmi qəbulda çıxış edərək Azərbaycan Hökuməti adından İndoneziya xalqını əlamətdar gün münasibətilə təbrik edib. O bildirib ki, ölkələrimizin əlaqələri, xüsusilə də parlamentlərarası münasibətlər sürətlə inkişaf edir. Hər iki ölkə beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir. Ə.Qarayev İndoneziya ilə Azərbaycan arasında mövcud olan iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Nazir mədəniyyət sahəsində əlaqələrdən də danışaraq bildirib ki, İndoneziya səfirliyi son iki ildə ölkəmizdə müxtəlif mədəniyyət festivalları keçirir, bu da xalqlarımızın əlaqələrinin güclənməsinə təkan verir. O, ölkələrimiz arasında münasibətlərin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

**AZƏRTAC**

# Ədəbiyyatşünaslıq elminin cəfakeşi

**Bütünlüklə ədəbiyyata bağlanmaq, onunla qoşa addımlamaq çətin və şərəflidir. Çünki ədəbiyyat adamının xəmiri humanistlikdən, insansevərlikdən yoğrulur, ədəbiyyat insanı ədəbli edir, romantik bir ruhda kökləyir. Əslində bu keyfiyyətlər hər bir xoşməramlı bəşər övladının mənəvi bəzəyidir. Bunu dünyagörmüşlərimiz, aqillər belə söyləyir. Həm də deyirlər ki, bədii sözdən, şeir-sənətdən gözəlliklər yaradan hər kəsin daxilindəki sevgi bu gözəlliklə birləşib böyük bir humanizm yaradır.**

**Bizim də sözümüzün ünvanı söz adamıdır. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, Zərdabişünas Esmira Yusuf qızı Cavadova...**

1942-ci ildə Şəkidə doğulan Esmira Cavadova 1956-cı ildə Bakıdakı 132 saylı orta məktəbi, 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kitabxanaşünaslıq fakültəsini bitirib, həmin ildən Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Kitabxanasında baş biblioqraf vəzifəsində əmək fəaliyyətinə başlayıb, 1968-1971-ci illərdə həmin kitabxananın müdiri vəzifəsində işləyib.

Uzun illər, daha dəqiq desək, 1972-2002-ci illərdə Bakı Mədəni-Maarif Texnikumunda (indiki Bakı Humanitar Kolleci) əsas müəllim, baş müəllim kimi fəaliyyət göstərən Esmira Cavadova pedaqoji fəaliyyətlə yanaşı, 1980-ci ildən AEA Tarix İnstitutunun dissertantı kimi elmi tədqiqat işi ilə də məşğul olmağa başlayıb. “Həsən bəy Zərdabinin əsərlərində Azərbaycan xalqının məişət və mədəniyyəti” mövzusunda namizədlik dissertasiyasını 1986-cı ildə Belarusiya SSR EA İncəsənət, Etnoqrafiya və Folklor İnstitutunun Elmi Şurasında müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi adını alıb. H.Zərdabinin yaradıcılığına həsr olunan etnoqrafik səpkidə yazılan bu ilk tədqiqat işi 1988-ci ildə “Sətirlərdə döyünən ürək” adı ilə kitab şəklində çap olunub.

1980-ci ildən mütəmadi şəkildə dövri mətbuatda çıxış edən Esmira xanım ədəbiyyat aləminə qədəm qoyduğu ilk gündən ədəbi ictimaiyyətin diqqətini cəlb edib, tədqiqatçılığı, alimliyi, ədəbiyyatşünaslığı söz qarşısında heyrətdən, sözə məhəbbətdən qaynaqlanıb, şəxsiyyəti isə insana sevgi üzərində qurulub, formalaşıb, yazdıqları da səmimi olub, ürəkdən gəlib, oxunub, bəyənilib.

Klassik irs və müasirlik ədəbiyyat qarşısında həmişə bir problem kimi dayanıb, klassiklərin yaradıcılığına zaman-zaman müxtəlif yanaşmalar edilib, bu səbəbdən alim və tədqiqatçıların da yeni-yeni nəsilləri yetişib. Sayılıb-seçilən belə alimlərimizin arasında Esmira Cavadovanın da öz yeri var, çünki o, klassiklərimizin unudulmaması kimi gözəl bir ənənəni yaşadanlardan, bu sahədə yaranan elmi məktəbin ocağını sönməyə qoymayanlardan biridir.

2003-cü ildə AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun “Şəxsi arxivlərin tədqiqi” şöbəsində böyük elmi işçi kimi fəaliyyətə başlaması onun tədqiqatçılıq işinə bir az da təkan vermişdir. Belə ki, elə həmin il H.Zərdabinin şəxsi fondunu bir daha araşdırarkən, ədibin həyatı ilə bağlı mühüm bir faktı ortaya çıxara bilmiş, alimin üzə çıxardığı rus dilində “Attestat” adlı sənədlə onun 1842-ci ildə anadan olduğu təsdiqlənmişdir.

Esmira Cavadova Teymur bəy Bayraməlibəyov fondunun tədqiqi ilə də ciddi məşğul olmuş, “O həm də görkəmli etnoqraf idi” monoqrafiyasından sonra, bu görkəmli yazarın əlyazmalarını sistemləşdirərək ilk dəfə rus dilində “İzbrannıe proizvedeniya” adlı kitabını 2012-ci ildə çap etdirmişdir. Ümumiyyətlə, 2012-ci il yaradıcılıq baxımından onun üçün düşərli olmuşdur. Belə ki, məhz həmin ildə “Zülfüqar bəy Hacıbəyovun arxivinin təsviri”, Həsən bəy Zərdabinin anadan olmasının 170 illik yubileyi münasibəti ilə “Həsən bəy Zərdabinin etnoqrafik görüşləri” adlı kitabları işıq üzü görüb.

Zərdabişünas alim öz ənənəsinə sadiq qalaraq bu böyük insanın həyat və fəaliyyəti ilə bağlı tədqiqatlarına ara verməmiş və Milli Mətbuatımızın 140 illik yubileyinə töhfə olaraq 2015-ci ildə rus dilində “Həsən bəy Zərdabinin Bakı Şəhər Dumasında fəaliyyəti (1897-1907)” kitabını çap etdirmişdir. Kitabda H. (Məlikov) Zərdabi ilə yanaşı, digər duma üzvlərinin fəaliyyəti geniş işıqlandırılır. Təsadüfi deyildir ki, elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən bu kitaba görə Esmira Cavadovanın Azərbaycanda mətbu irsinin öyrənilməsindəki xidmətləri nəzərə alınaraq 2015-ci ildə o, Milli Mətbuatın 140 illik yubileyi ilə əlaqədar Azərbaycan Mətbuat Şurasının III dərəcəli Ali Media Mükafatı ilə təltif edilib. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun 2015-ci il ərzindəki fəaliyyəti ilə bağlı hesabatında da alimin bu kitabı ilin ən mühüm nailiyyətlərindən biri kimi qeydə alınıb.



Esmira Cavadovanın 2016-cı ildə nəşr etdirdiyi “Həsən bəy Zərdabi (Məlikov). “Elmi-köməkçi biblioqrafik göstərici” də ədibin ilk biblioqrafik göstəricisi kimi böyük əhəmiyyət kəsb edir. Bu göstəricinin böyük zəhmət nəticəsində ərsəyə gəldiyini vurğulayan filologiya üzrə elmlər doktoru Paşa Kərimov “Həsən bəy Zərdabi biblioqrafiyası” adlı məqaləsində yazır: “Həsən bəy Zərdabi (Məlikov). “Elmi-köməkçi biblioqrafik göstərici” kitabı gərgin tədqiqatçı əməyinin məhsuludur, inanırıq ki, bu toplu Zərdabişünaslığın inkişafına öz töhfəsini verəcək...”.

Göstərici haqqında digər alim və mütəxəssislərin də fikirləri maraqlıdır. Tanınmış biblioqraf, Əməkdar jurnalist İsmət Səfərov “Milli mətbuatın banisi haqqında qiymətli göstərici” adlı məqaləsində yazır: “Biblioqrafik göstəricidə maraq doğuran odur ki, tərtibçi H.Zərdabinin əsərlərinin - kitabların, məqalələrin, haqqında yazılan kitabların və digər yazıların illər üzrə təsvirini verməklə yanaşı, təsvirdə verilən sərlövhəyə aydınlıq gətirmək məqsədilə ona sərlövhəaltı məlumat verərək onun nədən bəhs etməsini açıqlayır. Tərtibçi-müəllifin bu çətin işin öhdəsindən bacarıqla gəlməsi insanda qürur hissi oyadır. Bu işin necə çətin, lakin maraqlı, xeyirxah iş olduğu danılmazdır. Həsən bəy Zərdabinin əsərləri ilə yanaşı, onun haqqında yazan alimlərimizi, ədəbiyyat və mədəniyyət xadimlərini geniş kütləyə tanıtmaq xeyirxahlıq nümunəsidir”.

Fəlsəfə elmləri doktoru, Həsən bəy Zərdabi diplomçusu, professor İzzət Rüstəmov “Kaspi” qəzetinin 2017-ci il 26 dekabr tarixli sayında dərc olunmuş “Zərdabi ilə yenidən tanış olmaq istəyənlər üçün yol göstəricisi” adlı məqaləsində H.Zərdabinin həyatına, elmi yaradıcılığına həsr olunmuş E.Cavadovanın “Elmi-köməkçi biblioqrafik göstərici” kitabını çox dəyərli hesab edərək yazır: “Bu böyük mütəfəkkirin titanik fəaliyyəti, elmi yaradıcılığının müxtəlif aspektlərinin tədqiqi ilə məşğul olanlar, həmçinin belə bir tədqiqata girişmək istəyən cavanlarımız üçün çox qiymətli mənbə ola bilər. Esmira xanımın bu kitabı bəzən rastlaşdığımız boş, “ünvansız” romantikadan uzaqdır. Bu kitab H.Zərdabi ilə yenidən tanış olmaq istəyənlər üçün yol göstəricisi ola bilər”.

Beləliklə, tədqiqatçı-alim Esmira Cavadovanın keçdiyi ömür yoluna nəzər saldıqda məlum olur ki, o, ömrünü gərəkli işlərə sərf etmiş (istər pedaqoji, istərsə də tədqiqat sahəsində olsun), gördüyü, başa vurduğu işlərdə özünün dediyi kimi, kiçik də olsa, bir iz qoymuşdur. Elə bu izlərdən biri də onun 2003-cü ildə Nizami Xudıyevin ssenarisi əsasında Vasif Məmmədzadənin rejissorluğu ilə çəkilən “H.B.Zərdabi” adlı qısa metrajlı bədii-sənədli televiziya filmində görünür.

Bəli, o, uzun illərdir ki, elmimiz, vətənimiz qarşısında xidmətləri olan böyük şəxsiyyətlərin əməyinə dəyər vermək məqsədilə çalışır, onların bir çoxları üçün görünməyən işıqlı cəhətlərinə çıraq tutur. Bu isə ilk növbədə, vətənpərvərlikdən irəli gəlir.

Esmira Cavadova bir pedaqoq kimi də çoxlarına nümunə olub. Hələ texnikumda işlədiyi illər ərzində (1972-2002) özünə qarşı olan yüksək tələbkarlığına, fənnini peşəkarcasına nümunəvi tədris etdiyinə və ümumiyyətlə, tədrisin keyfiyyətini yüksəltmək məqsədilə müəllim və tələbələrlə apardığı işlərinə, metodşurada və pedaqoji şurada etdiyi elmi-təcrübi əhəmiyyətli məruzə və çıxışlarına görə 1992-ci il dekabrın 29-da Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ona “Baş müəllim” adı verilmişdir.

Tanrı əmanəti olan elmi layiqincə qoruyan, onu böyük bacarıqla kütlə arasında yayıb, sahibinə qaytarmaq kimi müqəddəs bir işlə məşğul olan, ədəbiyyatşünaslığımızın cəfakeşlərindən biri - Esmira xanıma bu yolda uğurlar arzulayırıq. İnanırıq ki, daxilindəki sevgi onun sözdən yaratdığı gözəlliklərlə birləşib daha sanballı tədqiqat işlərinin araya-ərsəyə gəlməsi üçün ona mənəvi qida verəcəkdir.

**Zümrüd ABDULLAYEVA,**
**“Respublika”.**

# Məcburi köçkünlərin növbəti qəbulu keçirilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində məcburi köçkünlərin növbəti qəbulu keçirilib.**

Qəbulda Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavinləri, şöbə və departament rəhbərləri iştirak ediblər.

Komitədən AZƏRTAC-a verilən məlumata görə, məcburi köçkünlər mənzil, kommunal xidmətlər, statusun verilməsi, məşğulluq və digər problemlərlə əlaqədar müraciət ediblər.

Məcburi köçkünlər fərdi qaydada qəbul edilib, problemləri dinlənilib. Müraciət edilən məsələlərlə əlaqədar onlara geniş izahat verilib.

Vurğulanıb ki, Prezident İlham Əliyev məcburi köçkünlərin problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün ardıcıl iş aparır. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın bu sahədəki mühüm və təxirəsalınmaz layihələrin icrasını daim diqqətdə saxladığı qeyd edilib.



Qəbulda iştirak edən məcburi köçkünlərin ərizələri aidiyyəti şöbələrin nümayəndələri tərəfindən qeydə alınıb.

Dövlət Komitəsinin sədri müraciətlərin araşdırılacağını və qanuna uyğun tədbirlər görüləcəyini bildirib.

**AZƏRTAC**

# Xəzər konvensiyası: elmi əməkdaşlıq imkanları

**Qədim dövrlərdən Xəzər dənizinin hövzəsi çoxsaylı tayfaların, xalqların və millətlərin birgə yaşayış məskəni olub. Bu hövzənin ehtiyat potensialının vəziyyəti regionda hökm sürən etnoslararası, sosial-iqtisadi və ekoloji münasibətləri müəyyən edir. SSRİ-nin süqutundan sonra Xəzər regionu Dünya iqtisadiyyatını özünə cəlb edərək neft və qazın çıxarılması və ixracı ilə tanınan mühüm regiona çevrilib. Bununla belə, bir sıra geoekoloji problemlər kəskinləşib ki, bunlardan ən vacibləri neft və qaz kəşfiyyatı və çıxarılmasının intensivləşdirilməsi fonunda əmələ gələn dəniz dibinin geoloji təhlükələrinin aradan qaldırılması və Xəzərin unikal nərə balıqları sürüsü daxil olmaqla zəngin bioloji ehtiyatlarının qorunması problemləridir.**

Son onilliklərdə Xəzər regionunda iri və böyük karbohidrogen yataqlarının açılması (Tengiz, Kaşaqan, Şahdəniz, Xvalınskoye, Y.Korçaqin adına və s.), hələ qazılmamış perspektivli strukturların böyük fondunun mövcudluğu, Azəri-Çıraq-Günəşli meqastrukturunda neftçıxarmanın unikal göstəriciləri və parametrləri, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin inşası, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu, Səngəçal dəniz limanı — bütün bu amillər Xəzər dənizi regionunu XXI əsr neft biznesinin qütblərindən birinə çevirib. Xəzərin sahilyanı ərazisində neft və qaz yataqlarının işlənilməsi 1847-ci ildən, dəniz adalarında 1900-cü ildən, dəniz dibində isə 1923-cü ildən aparılır.

Müasir bölgüdə təsdiqlənmiş neft ehtiyatlarının böyük payı (təxminən 150 milyard ton) Yaxın və Orta Şərq ölkələrində cəmlənib (Səudiyyə Ərəbistanı, İraq, İran, Küveyt, BƏƏ), bu isə 70 faizdən artıq deməkdir. İkinci yerdə Amerika qitəsi durur — 15,2 faiz (Venesuela, Meksika, ABŞ, Kanada, Braziliya), üçüncü yerdə Afrika — 6,8 faiz, bundan sonra isə keçmiş SSRİ respublikaları — 5,6 faiz. Bu bölgüdə Xəzər regionu hələ ki, olduqca kiçik rol oynayır (1,3-2,6 faiz) və bu vəziyyətin yaxın onillikdə dəyişəcəyi gözlənilmir. Məhz buna görə də ilk baxışda Xəzər nefti ətrafında yaranan ajiotaj təəccüb doğurur. Lakin aşağıdakı amilləri nəzərə alsaq, yaranan vəziyyətin səbəbi aydın olur.

Hər hansı bir neft və qaz ehtiyatının cəmləndiyi regionun strateji əhəmiyyəti təxminən eyni dərəcədə bir tərəfdən karbohidrogenlərin ümumi həcmi və ilk növbədə iri və böyük yataqların mövcudluğu ilə, digər tərəfdən isə regionun coğrafi yerləşməsilə müəyyən olunur. Bu baxımdan bir neçə iri yataqda cəmlənən yetərincə ehtiyatı olan Xəzər regionu Avropa və Asiyanın əsas müasir və gələcək satış bazarları arasında olduqca əlverişli strateji mövqeyə malikdir. Alim və mütəxəssislərin fikrincə, yaxın onilliklər ərzində Xəzəryanı ölkələrdən neftin ixracı bir neçə dəfə artacaq. Cari ilin avqustun 12-də beş Xəzəryanı ölkənin — Rusiya, İran, Azərbaycan, Qazaxıstan və Türkmənistanın liderləri Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı imzalayıb. Bu müqavilə üzərində iş 22 il ərzində aparılıb. Sənədə əsasən Xəzər su səthinin əsas ərazisi tərəflərin ümumi istifadəsinə verilir, dəniz dibi və təki isə beynəlxalq hüquq normaları əsasında qonşu dövlətlər arasında razılaşma yolu ilə hissələrə bölünür. Gəmiçilik, balıqçılıq, elmi tədqiqatlar və magistral boru kəmərlərinin inşası tərəflər arasında razılaşmış qaydalara uyğun aparılır. İrihəcmli dəniz layihələrinin həyata keçirilməsi zamanı bütün ölkələr mütləq şəkildə ekoloji faktoru nəzərə almalıdır. Konvensiyada Xəzərdə kənar dövlətlərin hərbi qüvvələrinin yerləşdirilməsinə icazə verilmir. Bundan əlavə, beş Xəzəryanı ölkə dənizdə təhlükəsizliyin təmin edilməsi və onun ehtiyatlarının idarə olunmasına görə məsuliyyət daşıyır.

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi problemi 1991-ci ildə Sovet İttifaqının süqutundan sonra yaranıb. Əvvəllər dəniz və şelf iki ölkə SSRİ (bundan öncə Rusiya İmperiyası) və İran arasında bölünüb. Əsas əngəli Xəzərin təsnifatı (göl və ya dəniz olması) törədib. Xəzərin göl olmağına dair dəlil onun Dünya okeanına çıxışının olmaması, dəniz olmağına dair dəlil isə iri ölçüsü və suyunun duzlu olmasıdır. Əgər Xəzər dənizdirsə, o, ölkələr arasında bir göldürsə, başqa prinsiplər əsasında bölünməlidir. Xəzəri dəniz hesab etsək, BMT-nin 1982-ci ildə qəbul etdiyi Dəniz hüququ üzrə Konvensiya işə düşməlidir ki, bu sənədə əsasən payların müəyyən edilməsi üçün hər ölkənin şelfinin ən uzaq nöqtəsindən hövzənin mərkəzinədək təxmini xətt çəkilməlidir. Xəzər göldürsə, hər beş ölkəyə dənizin dibindəki bütün neft və qaz yataqları daxil olmaqla eyni pay verilir (hərəyə 20 faiz). Su hövzəsinin bölgüsü prinsipləri haqqında məsələ şelfin zənginliyinə görə get-gedə kəskinləşirdi. Belə ki, Xəzər regionu üçün kəşf edilən karbohidrogen ehtiyatlarının həcmi 10 milyard ton təşkil edirsə, neft və qazın təxmin edilən ilkin ehtiyatlarının həcmi onlarla milyard tondan çoxdur.

Xəzəryanı ölkələr arasında danışıqlar formatında konsensus əldə etmək cəhdləri 1996-cı ildən başlayaraq davam edib. Bu illər ərzində işçi qrupunun 52 iclası keçirilib və yüksək səviyyədə dörd sammit təşkil olunub. Aktau sammiti sayca beşincidir, bu tədbirə qədər Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsində razılıq əldə olunmayıb. Belə ki, ötən əsrin 90-cı illərinin sonunda Rusiya su hövzəsinin bölgüsü üçün modifikasiya edilmiş orta xətt prinsipini təklif edib. 1998-ci il iyulun 6-da Rusiya və Qazaxıstan arasında Xəzər dənizinin şimal hissəsinin dibinin modifikasiya olunmuş orta xətt üzrə bölünməsi haqqında Saziş imzalanıb. 2002-ci il sentyabrın 23-də dəniz dibinin müvafiq hissələrinin bölünməsi haqqında analoji saziş Moskva və Bakı arasında da imzalanıb. 2003-cü il mayın 14-də ölkələr Xəzərin dibinin həmsərhəd hissələrinin bölgü xətlərinin qovuşduğu nöqtə haqqında üçtərəfli saziş imzalayıb. Maraqlıdır ki, Qazaxıstanın üç yatağı (Kurmanqazı, Sentralnoye, Xvalınskoye) dövlətlərin tam sərhədində yerləşir, lakin məsələ tez öz həllini tapıb: yataqlardan çıxarılan məhsul bərabər bölünür. Xəzərin cənubunda yaranan mübahisələri isə bu cür həll etmək mümkün olmayıb. Məsələn, Türkmənistanın MDB üzrə qonşuları ilə mövqeləri üst-üstə düşməyib, çünki arada Azərbaycanla “Kəpəz” iri neft yatağının kimə məxsus olması barədə həll olunmayan məsələ durur-du.

Aktau sammiti ərəfəsində tərəflər zəruri razılığa gələrək uzun tarixi dövrü yekunlaşdırıb konvensiyanı imzalamağa müvəffəq olublar. Lakin çərçivə konvensiyası regionda aparılan oyunun yalnız ümumi qaydalarını, ümumi hüquqi məqamlarını müəyyən edir. Hər ölkənin ərazi sularının həcmi 15 dəniz milinə bərabərdir, onların xarici sərhədi dövlət sərhədi statusu alır. Ərazi sularına on milə bərabər olan balıqçılıq zonası bitişir ki, burada hər bir ölkə nərə balıqlarının ovundan başqa, balıqçılıqla məşğul olmağa xüsusi hüquq əldə edir. Dəniz akvatoriyasının su səthinin ümumi ərazisi tərəflərin ümumi istifadəsində qalır. Xəzər dənizi akvatoriyasının dibi və təkinin bölgüsünü isə ölkələr ikitərəfli sazişlərin bağlanması vasitəsilə aralarında aparacaqlar.

Hüquqi bazadan başqa, konvensiyanın əsas müsbət tərəfi Xəzər dənizinin gələcəkdə Avrasiyanın iri multimodal qovşağına çevrilməsidir. Rusiyanın Xəzərdə dəniz limanlarının inkişafına dair möhtəşəm planları var. Məsələn, 2030-cu ilədək proqram qəbul edilib ki, sənədə əsasən 2025-ci ilədək Kaspiysk ərazisində yeni iri liman inşa edilməlidir. Bu isə mal dövriyyəsini ciddi şəkildə artırmalı, həmçinin “Şimal-Cənub” ticarət yolunu intensivləşdirməlidir. Yeri gəlmişkən, sözügedən ticarət yolu Çinin həyata keçirdiyi meqalayihəyə daxildir. Beləliklə, Xəzər konvensiyasının imzalanması elmi əməkdaşlıq üçün də geniş imkanlar yaradır.

Xəzərin öyrənilməsi haqqında danışaq, xatırlatmaq yerinə düşər ki, ötən əsrdə SSRİ-də Xəzər dənizi üzrə genişmiqyaslı tədqiqatlar aparılıb və bu araşdırmalarda Azərbaycan alimləri çox fəal iştirak ediblər. 90-cı illərin əvvəllərində Xəzər Qərb şirkətlərinin diqqətini özünə cəlb etdiyi zaman Azərbaycan Xəzər regionunun digər ölkələrinə nisbətən daha əlverişli başlanğıc mövqesində dayanmışdı. Elmin bütün sahələri üzrə birgə tədqiqatlar, dəniz şəraitində praktiki kəşfiyyat və neftçıxarmanın aparılması təcrübəsi, geniş məlumat bazası, zəngin yataqların mövcudluğu, kəşf edilmiş strukturlar, inkişaf etdirilən infrastruktur və nəhayət, kadr və elmi potensialın mövcud olması — bütün bunlar böyük üstünlüklər verirdi. 90-cı illərin çətin şəraitinə baxmayaraq, Azərbaycan Rusiya, Qazaxıstan və Türkmənistan alimlərilə əməkdaşlığı heç vaxt dayandırmayıb. Beləliklə, Azərbaycan regionun bütün respublikaları üçün elmi və texniki kadrlar hazırlayan ölkənin “Neft akademiyası” adını doğruldub. Xüsusilə, bu əməkdaşlığın nəticələrindən biri də nəşr edilmiş yüzlərlə məqalə və onlarla monoqrafiyalardır, o cümlədən rus və ingilis dillərində işıq üzü görən “Xəzər regionunun karbohidrogen potensialı” və “Xəzər regionunun neft və qazvermə qabiliyyəti” adlı fundamental əsərlərdir.

Bu gün Azərbaycan və Rusiya alimləri Rusiya Fundamental Tədqiqatlar Fondu və Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən maliyyələşdirilən qrantlar çərçivəsində 21 birgə layihə həyata keçirirlər. Konvensiyanın imzalanması bu əməkdaşlığa yeni impuls verəcək. Dünya okeanının tərkib hissəsi kimi Xəzər dənizi elə bir iri və mürəkkəb təbii obyektdir ki, onun öyrənilməsi üçün hər hansı bir fundamental elmi fənnin təcrübəsi kifayət deyil. Bütün fənlərin əməkdaşlığı lazımdır: fizika, kimya, geologiya, geofizika, bilogiya. Xəzərin öyrənilməsi üçün hansısa bir ölkənin səyləri də kifayət deyil. Bütün milli institut və təşkilatların, alimlər qruplarının səylərini birləşdirmək lazımdır. Bir gəmi yaxşıdır, çox gəmi isə daha yaxşı. Hələ 1960-cı ildə YUNESKO dünya alimləri qarşısında BMT-nin bayrağı altında fəaliyyət göstərən beynəlxalq okeanoqrafiya gəmisi və ya hökumətlərarası təşkilatın yaradılması seçimini qoyanda alimlər əməkdaşlığın inkişafına səs verərək müxtəlif ölkələrin bayraqları altında fəaliyyət göstərən onlarla gəminin səylərini birləşdirmək üçün Hökumətlərarası okeanoqrafiya komissiyası yaratdılar.

İlk olaraq region ölkələri razılaşma yolu ilə Xəzər dənizinin öyrənilməsinin əsas istiqamətləri üzrə Beynəlxalq proqram qəbul etməlidir. Bu gün artıq Rusiyanın elmi təşkilatları (Moskva Dövlət Universiteti, REA-nın Coğrafiya, Okeanologiya, Fizika institutları) ilə fənlərarası “Xəzər dənizi atlası”nın yaradılması, seysmologiya və geodinamika üzrə birgə tədqiqatların aparılması, Volqa çayının müasir və paleo-deltinin öyrənilməsi, Xəzər dənizinin səviyyəsinin dövrləşdirilməsi, karbohidrogenlərin geokimyası və palçıq vulkanizmi üzrə birgə tədqiqatların həyata keçirilməsi haqqında ilkin razılaşma əldə olunub.

Gələcəkdə bu əməkdaşlığın yeni, daha effektiv formasının təşkilinin müzakirəsi üçün işçi qrupu yatamaq lazımdır. Biz, Xəzər dənizinin problemləri üzrə Beynəlxalq Mərkəzin yaradılmasını nəzərdə tuturuq. Nümunə kimi 1972-ci ildə professor Elizabet Mann-Borqezenin təşəbbüsü ilə yaradılan Beynəlxalq Okean İnstitutunu göstərə bilərik. BOİ mütəxəssislərin peşəkar hazırlanmasını həyata keçirən və qlobal səviyyədə okeanın idarə olunması sahəsində potensialın artırılmasını təmin edən dünyanın aparıcı qeyri-hökumət və qeyri-kommersiya təşkilatıdır. Təşkilatın yaradılması “Pacem in maribus” (okeanda sülh) konsepsiyasının yayılması, gələcək nəsillərin okeanın sərvətlərindən istifadə edə bilməsi üçün okeanın və onun ehtiyatlarının qorunması üzrə mübarizənin aparılmasına dair mühüm addım idi. BOİ-nun missiyasının əsas istiqamətlərini təlimlərin keçirilməsi, potensialın gücləndirilməsi, beynəlxalq münasibətlər və nəşrlər təşkil edir. Hələ 2011-ci ildə ölkə başçısı Azərbaycan Milli Elmlər Akademiyasında Xəzər dənizi problemlərinin öyrənilməsi üzrə Elmi mərkəzin yaradılması haqqında Sərəncam imzalayıb. Hesab edirik ki, bu addım Xəzərin tədqiqinə yeni impuls verərək sözügedən unikal obyektin dərindən öyrənilməsi üçün bir çox alim və təşkilatların səylərini birləşdirməyə şərait yaradacaq.

**İbrahim QULİYEV,**
**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik.**

# Müəllimlərin ənənəvi sentyabr konfransı





Gəncədə təhsil işçilərinin 2017-2018-ci tədris ilinin yekunu və yeni tədris ilində qarşıda duran vəzifələrə həsr olunmuş ənənəvi, sentyabr konfransı keçirilmişdir. Konfrans nümayəndələri və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Azərbaycan Respublikası təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, millət vəkili Pərvin Kərimzadə, əvvəlcə ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi önünə tər gül-çiçək dəstələri qoyaraq, böyük öndərin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Gəncə Şəhər İcra Hakimiyyətinin iclas zalında Dövlət Himni səsləndikdən sonra şəhər təhsilində ötən il qazanılan uğurlardan bəhs edən videoçarx nümayiş etdirildi.

Şəhər təhsil idarəsinin müdiri, Respublikanın Əməkdar müəllimi, texnika üzrə fəlsəfə doktoru Zakir Hüseynov "2017-2018-ci tədris ilinin yekunu və yeni tədris ilində qarşıda duran vəzifələr" mövzusunda geniş hesabatla çıxış etdi. Qeyd etdi ki, ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində qazanılan uğurlar, beynəlxalq aləmdə Azərbaycanımızın nüfuzunun gündən-günə artması, dünyada ən sürətlə inkişaf edən dövlət kimi tanınması, regionlarımızın öz simasını dəyişməsi, elm, təhsil, səhiyyə, mədəniyyət, idman sahəsində əldə olunan nailiyyətlər hər bir Azərbaycan vətəndaşının qəlbində qürur hissi yaradır. Bu gün müasir Azərbaycan dövlətinin, dünyanın ən inkişaf etmiş dövlətləri ilə bir sırada adının çəkilməsi, artıq ənənə halını almış, beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməsi, iqtisadiyyatın dayanıqlı və dinamik inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu inkişaf və tərəqqinin sürətlə davam etdirilməsi məhz Heydər Əliyev siyasi kursunun qətiyyətli və layiqli davamçısı, praqmatik dövlət başçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uzaqgörən siyasətinin verdiyi töhfədir. Bu baxımdan Gəncə şəhərində də tədris ilinin yekunları ürəkaçan olmuşdur. Tədris ilində şagirdlərin sayı 40 067 nəfər, onların təlim-tərbiyəsi ilə 3 868 nəfər müəllim məşğul olmuşdur. Bu il ali məktəblərə qəbul olanların sayı ötən ilə nisbətən daha yüksəkdir. Belə ki, ali məktəblərə qəbul olanların 264 nəfəri 500-dən yuxarı, 90 nəfəri 600-dən yuxarı və 1 nəfər 700 bal toplayıb. 2017/2018-ci tədris ilində ali məktəblərə sənəd təqdim edən məzunlardan 1048 nəfəri respublikamızın ali məktəblərinə, qəbul olunublar. Bundan başqa, 195 nəfər abituriyent 11 illik təhsil bazasından orta ixtisas təhsil müəssisələrinə daxil olublar. 20-dən cox məzun xarici ölkələrin (İngiltərə, Polşa, Türkiyə, Rusiya, Sinqapur və Cənubi Koreya) ali məktəblərində təhsillərini davam etdirəcəkdir.

Bu ildən etibarən hazırlıq qruplarına uşaqların qəbulu elektron qaydada aparılır. Bu tədris ilində 2013-cü ildə anadan olmuş 3749 uşağın 75%-i, yəni 2812-si elektron qaydada 141 hazırlıq qrupuna qəbul ediləcəkdir. Bu günədək Gəncə Şəhər Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin 183-də I sinfə 4200 şagird qəbul olunub. Hazırda I siniflərə elektron qaydada qəbul davam etdirilir.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva təhsil işçilərini yeni tədris ili münasibəti ilə təbrik edərək, onlara çətin və şərəfli peşələrində uğurlar arzuladı. Məhəbbət Vəliyeva ölkəmizin təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən birinin keyfiyyətli təhsil və yüksəkixtisaslı kadr hazırlığının olduğunu bildirərək, 2017-2018-ci dərs ilinin "Ümumi təhsildə keyfiyyət ili" elan edilməsinin bu vəzifənin uğurla həll olunmasında mühüm rol oynadığını vurğulamışdır.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov konfransda çıxış edərək, son illər təhsildə qazanılan uğurları, dövlət qayğısının nəticəsi kimi dəyərləndirmişdir.

Çıxışlardan sonra bu il şəhər üzrə qəbul imtahanında 700 bal toplayan İsrafil Məmmədov adına 27 nömrəli məktəb-liseyin məzunu Selcan Məmmədliyə və 695 bal toplayan 30 №-li tam orta məktəbin məzunu Altun Balayevə notebook hədiyyə edilmişdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# LƏNKƏRAN: 3 MƏZUN QIZIL MEDAL, 2 MƏZUN İSƏ 700 BALLA TƏLƏBƏ ADINI QAZANIB

Lənkəranın ümumtəhsil məktəblərini bitirmiş məzunlardan 619 nəfəri ali məktəblərə qəbul olunub. Bu, əvvəlki tədris ili ilə müqayisədə 58 nəfər çoxdur. İki məzun cənub bölgəsinin rayonları üzrə ilk dəfə olaraq 700 bal toplayaraq tələbə adına layiq görülüb.

Qəbul imtahanlarında 51 nəfər 600, 68 nəfər isə 500 baldan çox nəticə əldə edib. Lənkəran şəhər 4 nömrəli humanitar təmayüllü məktəb-liseyin 3 məzunu orta təhsili qızıl medalla başa vurub. Rayonda IX sinifləri bitirmiş məzunlardan 17 nəfər, XI siniflərdən isə 13 nəfər fərqlənmə attestatı alıb.

Orta məktəbi qızıl medalla bitirmiş Turan Məmmədli kimya fənni üzrə beynəlxalq olimpiadada III yerə çıxdığından Koreyada universitetə imtahansız qəbul olunub. Digər iki qızıl medalçı: Məhəmmədəli Muradlı Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi, İsgəndər Məmmədli isə Bakı Dövlət Universitetinin iqtisadiyyat fakültəsinin tələbəsi adını qazanıb.



Qəbul imtahanlarında ən yüksək nəticəyə Rəmzi Abıyev və Fəyyaz Aslanlı layiq görülüb. Hər iki gənc imtahanlardan 700 bal toplayıb.

Rəmzi Lənkəran rayonunun Balıqçılar qəsəbə tam orta məktəbinin məzunudur. Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə fakültəsinə qəbul olunub. Universitetdə ingilis dilində təhsil alacaqdır. Onun uğuruna təkcə ailə üzvləri deyil, oxuduğu orta məktəbin pedaqoji kollektivi, rayon ictimaiyyəti sevinir.

Balıqçılar qəsəbə tam orta məktəbinin direktoru Kamran İsmayılov Rəmzinin birinci sinifdən əlaçı olduğunu, IX sinifdən başlayaraq II ixtisas qrupu üzrə hazırlaşdığını, birinci dəfə imtahanlardan 585 bal, ikinci dəfə 700 bal topladığını bildirir.

Rəmzinin anası Validə Abıyeva da həmin məktəbdə müəllim işləyir. Oğlunun dərslərə ciddi hazırlaşdığını, Lənkəran şəhərində "Cənub" hazırlıq kursunda da oxuduğunu, sınaq imtahanlarından 640-650 bal topladığını deyir. Həm məktəbdə, həm də evdə onun dərslərinə nəzarət etdiyini vurğulayır.

Rəmzi qazandığı uğurlarda müəllimlərindən Pərviz İbrahimov, Afiq İsmayılov, Bəxtiyar Hacıyev, Könül Əliyeva, Sevda Bağırova, Aytən Nəzərova, Pərvanə Əliyeva və Əfqan Abbasovun böyük zəhməti olduğunu minnətdarlıqla qeyd edir.

Əlbəttə, 700 bal toplamaq çox da asan deyil. Əgər qarşına məqsəd qoysan, gecə-gündüz inadla çalışsan bu, mümkündür. Mən sutkanın təxminən yarısını oxuyur, imtahanlara ciddi hazırlaşırdım, - deyir.

Fəyyaz Aslanlı isə IV ixtisas qrupu üzrə imtahanlardan 700 bal toplayıb. Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olunub. Masallı rayonunun Gəyəçöl kənd tam orta məktəbində və Masallı şəhərindəki "Dəfinə" liseyində oxuyub.



Lənkəran şəhərinin "İstək" liseyində keçirilən qəbul imtahanında cənub regionu üzrə ən yüksək nəticə qazanıb. Liseydə 5 il pulsuz təhsil almaq hüququ qazanıb. İxtisas fənnlərini ingilis dilində oxuyub. Çalışqan, fəal şagird kimi tanınıb. Fəyyaz Aslanlı uğurlarının sirrini belə açıqlayır:

- Repititor yanına getməyə ehtiyacım olmayıb. Yataqxanada qalmışam. Dərsləri sevə-sevə oxumuşam. Hər gün dərslərə 6 saat vaxt ayırırdım. İstirahət etməyi də unutmurdum. Bəziləri kimi gecə saat 3-ə kimi oxumamışam. Əlavə ədəbiyyatlarla hər gün cəmi saat yarım məşğul olurdum. Bunun dünyagörüşümün artmasına böyük təsiri oldu.

İmtahan zamanı stresə düşmədən qısa vaxtda test tapşırıqlarını icra edirdim. Ayrılmış vaxtın 2 saatında test suallarını 3 dəfə təkrar işləyirdim. İxtisas fənnlərinin suallarını çətindən asana doğru sıralayırdım. Əvvəl asan və orta səviyyəli sualları, sonra çətin sualları cavablandırırdım. Asan və çətin sualların qarşısına işarə qoyur, cavabları təzədən yoxlayırdım. 700 bal toplamaq istəyən abituriyentlərə məsləhət görərdim ki, imtahan materiallarını tələsmədən, hissə-hissə, lakin davamlı şəkildə oxusunlar. Test tapşırıqlarını sürətlə işləməyi öyrənsinlər. Uğur əldə etməyin yolu inadla, əzmlə, yorulmadan oxumaq, çalışmaqdır. Zəhmət heç vaxt itmir. Tibb Universitetində yaxşı oxumağı, müasir texnologiyalara yiyələnməklə savadlı, bacarıqlı cərrah olmağı qarşıma məqsəd qoymuşam.

Lənkəranlı gənclərin ilk uğurları sevinc, fərəh doğurur. İnanırıq ki, onlar ali məktəblərdə elmin sirlərinə dərindən bələd olacaq, yeni uğurlara imza atacaqlar.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

# Beyləqan rayonunda törədilmiş ağır cinayətin üstü açılıb

**Beyləqan rayonunda törədilmiş ağır cinayətin üstü prokurorluq və polis orqanlarının əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində açılıb.**

Respublika Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, 2018-ci il sentyabrın 4-də Quba rayon sakini İlqar Fərhadov hüquq-mühafizə orqanlarına müraciət edərək qardaşı, Beyləqan rayonunun Türklər kəndindəki fermanın ərazisində tikdirdiyi evdə yaşayan və heyvandarlıqla məşğul olan İldırım Fərhadovun cari il iyulun 28-də Rusiya Federasiyasının Yessentuki şəhərinə istirahətə getdiyini və ötən müddət ərzində ondan məlumat ala bilmədiyini bildirib.

Müraciətlə əlaqədar polis əməkdaşları tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinə başlanılıb və onun respublikanı tərk etmədiyi müəyyənləşdirilib.

Araşdırmalar zamanı İ.Fərhadovun qeyri-rəsmi nikah münasibətində olduğu Əzizə Sadıqovanın sahibkarın itkin düşməsilə birbaşa əlaqəsinin olmasına əsaslı şübhələr yaranıb.

Sentyabrın 9-da Bakıda saxlanılmış Ə.Sadıqova təkzibedilməz sübutlar və şahid ifadələrindən sonra İ.Fərhadovun cari il iyulun 26-da sonuncuya məxsus fermada Beyləqan rayonunun Dünyamalılar kənd sakini, əvvəllər dəfələrlə məhkum olunmuş Şahsuvar Əsədov tərəfindən odlu silahla qətlə yetirildiyini və elə həmin ərazidə basdırıldığını etiraf edib.

Keçirilmiş əməliyyat-axtarış və istintaq tədbirləri ilə Ş.Əsədov həmin gün Dünyamalılar kəndinin ərazisində tutulub. Ş.Əsədovun evinə baxış zamanı hadisəni törədərkən istifadə etdiyi, müvafiq sənədləri olmayan bir ədəd "İJ-16" markalı tüfəng maddi sübut kimi götürülüb. İldırım Fərhadovun basdırıldığı yer müəyyənləşdirilib. Sonradan izi itirmək məqsədilə üzərində təndir tikilmiş ərazi qazılıb və meyit ekshumasiya edilərək aidiyyəti üzrə təhvil verilib.

Faktla əlaqədar Beyləqan Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.1-ci (bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə) və 120.2.5-ci (tamah məqsədilə və ya sifarişlə, habelə zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədi ilə adam öldürmə) maddələri ilə cinayət işi başlanılıb.

Hər iki şəxs istintaqa ifadəsində bu ağır cinayəti tamah məqsədilə törətdiklərini etiraf ediblər.

İş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**AZƏRTAC**

*Yeni dərs ili qarşısında*

# Təhsilin keyfiyyəti ildən-ilə yüksəlir

Bu gün müstəqil Azərbaycan dövləti özünün ən yüksək inkişaf dövrünü yaşayır. Həyatımızın bütün sahələrində olduğu kimi, ölkə təhsilində də böyük uğurlar əldə olunmuş, milli təhsilimiz müasir dünya tələbləri səviyyəsinə çatdırılmışdır. Ölkəmiz öz dövlət müstəqilliyini əldə etdikdən sonra bu mühüm sahəyə diqqət və qayğı daha da artırıldı, ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün ciddi islahatlar həyata keçirildi. Yeni, müasir tipli təhsil ocaqlarının tikintisi, təmirə ehtiyacı olan məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təchizatı işlərinə start verildi. "Təhsil sahəsi xalqımızın bugünü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir"—deyən ümummilli lider Azərbaycan təhsilinin dinamik inkişafını təmin edən bir sıra mühüm sənədlər imzaladı. "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında", "Azərbaycan əlifbası və Azərbaycan Dili Günü (1 avqust) təsis edilməsi haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə verilmiş fərman və sərəncamlar təhsilimizin bugünkü inkişaf səviyyəsində olmasında böyük rol oynadı.





Sevindirici haldır ki, təməli dahi Heydər Əliyev tərəfindən qoyulmuş təhsil islahatları bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirilir. Ölkə başçısı tərəfindən ardıcıl və məqsədyönlü aparılan təhsil siyasətinin həyata keçirilməsinin nəticəsidir ki, son illərdə Azərbaycanda təhsil sahəsində möhtəşəm nailiyyətlər əldə edilib. Ölkəmiz bu gün bu sahədə inkişaf etmiş ölkələr sırasındadır. Müasir dövrdə hər bir ölkənin inkişafı məhz onun təhsilinin səviyyəsi ilə ölçülür. Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və qayğısı sayəsində təhsil islahatları uğurla davam etdirilir, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında məktəblərin tikintisi, əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş işlər uğurla öz həllini tapır. Şagirdlərə yaradılan bu şərait onların ən yüksək səviyyədə təhsil almaları, vətənpərvərlik, milli-mənəvi dəyərlərə sadiqlik ruhunda böyümələri və s. üçün hərtərəfli imkanlar açır.

Azərbaycanda milli təhsilimizin inkişafı, onun dünya təhsil sisteminə sürətlə inteqrasiya olunması, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmlənməsində və bu sahənin inkişafı ilə bağlı proqram və layihələrin həyata keçirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri də böyükdür. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" ilə bağlı proqram və layihələr bu sahənin inkişafında xüsusi rol oynayıb. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin başlanması geniş bir hərəkata yol açdı və ondan sonra dövlət xətti ilə bir çox məktəblər tikildi. 2004-cü ildən bugünə qədər 3 mindən çox məktəbdə əsaslı təmir işləri aparılmış, bir çox məktəblər yenidən tikilmişdir.

Məktəblərin, təhsilin, ümumiyyətlə, maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bərabər, təhsilin keyfiyyəti də yüksəlir. Bütün bunlara səbəb isə dövlətimiz tərəfindən milli təhsilimizə göstərilən diqqət və qayğıdır. Son illər ərzində Bakı şəhərində fəaliyyət göstərən məktəblərin tam əksəriyyəti demək olar ki, əsaslı təmir olunub, yeni məktəblər və yeni korpuslar tikilib. Bu işlər hazırda davam etdirilir. Yeni dərs ili ərəfəsində də bir çox məktəblərdə tikinti və əsaslı təmir işləri aparılmış, bəzi məktəblərdə isə yekunlaşmaq üzrədir. Sevindirici haldır ki, təmirdən sonra istifadəyə verilən təhsil müəssisələrinin açılışında cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəxsən iştirak edir, pedaqoji kollektivlə görüşür, təmirin keyfiyyəti, yaradılan şəraitlə tanış olur, öz tapşırıq və tövsiyələrini verirlər.



Qeyd edim ki, rəhbərlik etdiyim Binəqədi rayonu Vüqar Əvəzov adına 300 saylı məktəb də yeni tədris ilinə tam hazırdır. Məktəbin əlavə korpusu ən müasir tələblərə uyğun əsaslı təmir olunub, yeni texniki-tədris avadanlıqları ilə tam təchiz edilib. Vurğulayım ki, məktəbin əsas yeni binasının da tikintisi nəzərdə tutulub. Məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə 142 nəfər müəllim məşğuldur. Təhsil Nazirliyi tərəfindən yeni dərsliklər verilmiş, şagirdlər bütün dərs vəsaitləri ilə tam təmin olunmuşdur. 30 sinif otağının hamısı bütün lazımi avadanlıqlarla təchiz edilib. I sinfə qəbul - 6 sinif Azərbaycan bölməsinə, 2 sinif rus bölməsinədir. Hazırda 141 uşaq Azərbayan bölməsinə, 64-ü isə rus dili bölməsinə sənəd təqdim edib. Məktəbə hazırlıq bu tədris ilində 3 Azərbaycan, 1 isə rus qrupudur. Məktəbimizdə 1825 şagird təhsil alır. Ötən dərs ilində tam orta təhsil üzrə 58 şagird attestat alıb. Məktəbi bitirənlərdən 51 nəfər ali məktəblərə sənəd vermiş, 37 nəfəri ali məktəblərə daxil olmuşdur. Onlardan 6 nəfəri 500-600 arası bal toplayıb. Dosova Elena 687 balla Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının kimya fakültəsinə, Zəhra Qasımova isə 623 bal toplayaraq Azərbaycan Dillər Universitetinin italyan dili fakültəsinə qəbul olmuşdur.

Vurğulayım ki, ötən tədris ilində məktəb kollektivinin əldə etdiyi uğurların təməlində Təhsil Nazirliyinin və Bakı şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyinin diqqət və qayğısı dayanır. Belə ki, BŞTİ rəhbərliyi ötən tədris ilində bir neçə dəfə məktəbimizdə olmuş, tədrisin keyfiyyəti ilə maraqlanmış, görüşlər keçirmiş, öz tapşırıq və tövsiyələrini vermişdir. BŞTİ tərəfindən təsdiq edilmiş məktəbin fəaliyyət planında təhsilin keyfiyyətinə təsir edəcək üç amilin yerinə yetirilməsi öz əksini tapmışdır. Bunlardan müəllimlərin şagirdlərlə işində ədalətlilik, bərabərlik və stimullaşdırıcı prinsiplərə əməl olunmasıdır. Məqsədimiz ildən-ilə təhsilin keyfiyyətini yüksəltmək və daha uğurlu nəticələr əldə etməkdir.

**İradə XƏLİLOVA,**
**Bakı şəhəri, 300 saylı tam orta məktəbin direktoru.**

# "Azərbaycan" brendi ilə ixrac olunan məhsulların coğrafiyası və çeşidi genişlənir

*Cari ilin 6 ayında ölkəmizin ixrac dövriyyəsi 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artmışdır*

**(əvvəli 1-ci səhifədə)**

Respublikamızda qarşıdakı illərdə iqtisadiyyatın ən azı 2 dəfədən çox yüksəlməsinin proqnozlaşdırılması birbaşa dövlətin həyata keçirdiyi iqtisadi inkişaf kursunun perspektivinə beynəlxalq reytinq agentliklərinin də böyük inamının olmasıdır.

Mütəxəssislər iqtisadi yüksəlişin səbəbini bir tərəfdən neftin qiymətinin (2016-cı ildə 44 dollar, 2017-ci ildə 54 dollar, 2018-ci ildə isə 70 dollardan çox) artması ilə əsaslandırırlarsa, digər tərəfdən qeyri-neft məhsullarının ixracı ilə bağlayırlar. Bildiyimiz kimi, Azərbaycanda son 2 ildə həyata keçirilən islahatların əsas istiqamətləri sırasında iqtisadiyyatın şaxələndirilməsi investisiya qoyuluşunun sürətləndirilməsi, qeyri-neft sektorunun yüksək inkişaf tempinin təmin olunması durur. Məhz bütün bunların sayəsində son vaxtlar Azərbaycan məhsullarının ixrac coğrafiyası daha da genişlənib.

Həyata keçirilən mühüm tədbirlərin fonunda Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı bir sıra mühüm sənədlər və dövlətin qeyri-neft sektoruna dəstəyi böyük əhəmiyyət kəsb edir. Məsələn, 18 yanvar 2016-cı il tarixində "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam, 1 mart 2016-cı il tarixdə "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzalanıb. Eyni zamanda dövlət başçısının xüsusi sərəncamı ilə qeyri-neft məhsullarının stimullaşdırılması üçün "Made in Azerbaijan" brendi və "Azexport.az" portalı yaradılmışdır. İqtisadiyyat Nazirliyinin məlumatına görə, 2017-ci ilin yanvar ayından 2018-ci il iyulun 1-dək "Azexport.az" portalına dünyanın 96 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 759,4 milyon dollar təşkil edib. Bu o deməkdir ki, son illərdə dünya bazarlarına çıxan Azərbaycan məhsullarına tələbat artıb. Artıq ölkəmizdə istehsal edilən qeyri-neft məhsulları çox sayda ölkələrdə ticarət evlərində satılır. İndiyədək xarici dövlətlərə 15 ixrac missiyası təşkil olunub, ixracatçılar 11 önəmli beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak ediblər. Bu sərgilərdə ilkin razılaşmalar və sifarişlər əldə olunub, ixrac müqavilələri imzalanıb, ixrac təşviqinin ödənilməsi davam etdirilib. Xarici kütləvi informasiya vasitələrində sahəvi brendlərin reklam kampaniyası və "Made in Azerbaijan" brendinin təşviqi davam etdirilir.

Ümumiyyətlə, bu istiqamətdə qısa müddətdə mühüm işlər görülüb. Məsələn, ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə Rusiya, Çin, Birləşmiş Ərəb Əmirliklərində və Şərqi Avropada ticarət nümayəndələri fəaliyyət göstərir. Belarusda və Ukraynada Azərbaycan ticarət evləri açılıb. Çində "Şərab evi"nin, Latviyada və Birləşmiş Ərəb Əmirliklərində ticarət evlərinin açılması planlaşdırılmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə Rusiyanın Həştərxan şəhərində "Azərbaycan İş Mərkəzi" açılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, "Made in Azerbaijan" brendi ilə istehsal olunan məhsullar üçün yeni bazarların tapılması ilə bağlı tapşırıqlarının icrası istiqamətində əhəmiyyətli işlər aparılır. Bu istiqamətdə xarici ölkələrdə ticarət evlərinin fəaliyyəti Azərbaycan məhsullarının tanıdılması, satışı və sərgisinin təşkilində əhəmiyyətli rol oynayır.

Sentyabrın əvvəlində Çinin Urumçi şəhərində fəaliyyətə başlayan Azərbaycan Şərab evi də xarakterinə görə xaricdə açılan ilk məkandır. Şərab evinin açılış mərasimində Çin Xalq Respublikası Sincan Uyğur Muxtar Rayonunun rəsmiləri, Azərbaycanın Çindəki səfirliyinin nümayəndələri, ölkəmizin qabaqcıl şərab istehsalçıları və Çinin şərab satışı ilə məşğul olan şirkətlərinin təmsilçiləri iştirak ediblər. Tədbirdə Azərbaycanın şərabçılığına dair təqdimatlar olub, filmlər nümayiş etdirilib. Çinin şərab satışı ilə məşğul olan şirkətləri üçün Azərbaycan şərablarının dequstasiyası təşkil olunub. Qeyd edək ki, "Made in Azerbaijan" brendi ilə istehsal olunan məhsulların Çin bazarında tanıdılması və satışının genişləndirilməsi məqsədi ilə yaxın vaxtlarda yeni ticarət və şərab evlərinin açılması planlaşdırılıb.

Hazırda ölkəmizdən bir sıra dövlətlərə meyvə, tərəvəz, şərab və şirələr, mürəbbə, xalça və kəlağayılar, tikinti materialları və sair məhsullar ixrac olunur. Bir sözlə, ildən-ilə Azərbaycan məhsullarının həm ixrac coğrafiyası, həm də çeşidləri genişlənir.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**


## "AZERGOLD" QSC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1** - Dağ-mədən və kəşfiyyat sahələrində ekoloji monitorinq-qiymətləndirmə aparılması xidmətinin satınalınması

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Rafiq Abdullayev, Tel: 012-505-02-02 (dax. 1107), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 130 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Hesab: AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: "PAŞA Bank" ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
*7. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 15 oktyabr 2018-ci il, saat 15.00-a qədər, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) 23 oktyabr 2018-ci il, saat 15.00-a qədər "AzerGold" QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı 24 oktyabr 2018-ci il saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**"AzerGold" QSC, Tender Komissiyası.**

## Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu aşağıdakı

# SATINALMANI ELAN EDİR

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu üçün daşınmaz əmlak bazarında tələbin öyrənilməsinə dair ictimai sorğunun keçirilməsi üzrə xidmətin satın alınması ilə bağlı Xidmət təkliflərinin cəlb olunması.

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu (bundan sonra - Fond) Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə yaradılan qeyri-kommersiya hüquqi şəxsdir. Fond barədə ətraflı məlumatları http://www.mcgf.az ünvanında yerləşən internet səhifəsindən əldə etmək olar.

Satınalma üzrə prosedurlar **12 oktyabr 2018-ci il tarixində saat 15:00-da** Fondun inzibati binasında təklif zərflərinin açılması ilə başlanılacaqdır.

**Satınalmada iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı sənədləri təqdim etməlidir:**

*-Satınalmada iştirak etmək üçün ərizə;*

*-iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*

*-Təklif;*

*-Təklifin qiymətinin 1 faizi həcmində təminat (bank qarantiyası);*

*-iddiaçının hüquqi statusunu əks etdirən sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış, VÖEN) notariat qaydasında təsdiq edilmiş surətləri, ƏDV qeydiyyatının olub-olmamasını müəyyən etməyə imkan verən sənədlərin surətləri;*

*-iddiaçının iş təcrübəsini təsdiq edən sənədlərin surətləri;*

*-Satınalma təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*

*-iddiaçının fəaliyyətinin axırıncı ili üzrə maliyyə vəziyyəti haqqında bank arayışı və bank rekvizitləri;*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Vergilər Nazirliyi və Dövlət Sosial Müdafiə Fondu tərəfindən arayışlar);*

**Satınalmada iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı tələblərə cavab verməlidir:**

*-öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*

*-müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*

*-satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəriciləri yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Xidmət təklifləri sorğusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli xidmətlər üzrə xidmət təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni xidmətlərin təklif edilən qiymətinə 20 faizi həcmində **güzəştli düzəliş** tətbiq ediləcəkdir.

**Xidmətin icra müddəti:** 3 ay olaraq müəyyən edilmişdir.

Xidmət təklifləri sorğusu Azərbaycan dilində tərtib olunmuşdur.

Satınalmada **iştirak haqqı 50 manat** məbləğində müəyyən edilmişdir. İştirak haqqı Fondun aşağıdakı hesabına ödənildikdən sonra satınalma üzrə Xidmət təklifləri sorğusu malgöndərənlərə təqdim ediləcəkdir:

*Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu*
*Ünvan: AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 40*
*VÖEN: 1403502281*
*H/h: AZ57NABZ01360450000000005944*
*Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı*
*VÖEN: 9900071001*
*Kod: 501004*
*M/h: AZ74NABZ01451700000000001944*
*S.W.İ.F.T bik: NABZAZ2C*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Satınalma üzrə ilkin sənədlər **02 oktyabr 2018-ci il tarixinədək**, təklif zərfləri və təklifin təminatı isə **11 oktyabr 2018-ci il tarixinədək** qəbul ediləcəkdir.

Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsin iş telefonu və faks nömrəsi: (+99412) 441-24-23 (daxili 172), Faks: (+99412) 598-11-77.

**Satınalmalar Komissiyası.**

## BİLDİRİŞ

### Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu" ASC

**Lot-1.** "Çuxurdərə gölməçələrinin ekoloji vəziyyətinin sağlamlaşdırılması və landşaftın bərpası" işlərinin təkliflər sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 539 18 10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 20 sentyabr 2018-ci il saat 18:00-dək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Nobel pr. 61.*

**Tender Komissiyası.**

## "AZERGOLD" QSC

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1 -** Nəcib metal külçələrinin seqreqasiyası və sikkələrin hazırlanması xidmətlərin satınalınması

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Rafiq Abdullayev, tel.: 012-505-02-02 (dax. 1107), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 170 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Hesab:*
*AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: "PAŞA Bank" ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*

*7. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 02 oktyabr 2018-ci il, saat 15.00-a qədər, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) 10 oktyabr 2018-ci il, saat 15.00-a qədər "AzerGold" QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı 11 oktyabr 2018-ci il saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**"AzerGold" QSC, Tender Komissiyası.**

TƏKRAR

## "Azərbaycan Sənaye Korporasiyası" ASC şüşə istehsal xətti üçün avadanlıqların və ehtiyat hissələrin alınması, onların sazlanması və istismar vəziyyətinin yoxlanılması ilə əlaqədar satınalmalar məqsədilə

# AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak haqqı 300 (üç yüz) manat təşkil edir. İştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderin Əsas Şərtlər Toplusunu almaq və tenderdə iştirakçı statusunu əldə etmək üçün Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 40C (əlaqələndiri şəxs: Nihad Axundov, tel.: (+99412) 505-95-11 əldə edə bilərlər.

*Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı"nın Mərkəz filialı*
*Swift Code: İBAZAZ2X*
*Bankın ünvanı: Bakı, Z.Tağıyev küçəsi,3.*
*Müxbir hesabı:*
*AZ03NABZ01350100000000002944*
*Kod: 805722*
*Bank VÖEN:9900001881*
*Alan: Azərbaycan Sənaye Korporasiyası ASC*
*Alanın hesabı:*
*AZ31İBAZ38060019446065857204*
*VÖEN: 1305305281*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*

*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- tender təklifi (zərflər açıldığı tarixdən əz azı 30 bank günü qüvvədə olmalıdır);*

*- iddiaçının tam adı, ünvanı, hüquqi statusunu təsdiq edən sənəd (surəti) və bank rekvizitləri;*

*- tender təklifinin təminatını təsdiq edən sənəd (bankın təminatı zərflər açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında arayış ;*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*

Tender təklifinin bank təminatı tender təklifinin 1 (bir) %-dən az olmamalıdır.

İddiaçının tender təklifindəki qiymət malların qiymət dəyərindən başqa, nəqliyyat, ƏDV, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla göstərilməlidir.

Tender iştirakçıları öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri 02 oktyabr 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş və hər iki tərəfi imzalanmış ikiqat zərflərdə 12 oktyabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 40C ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtlardan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 oktyabr 2018-ci il saat 11:00-da Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 40C ünvanda açılacaqdır.

Tenderin keçirilməsi ilə bağlı əlavə məlumat əldə etmək üçün "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin əməkdaşı Nihad Axundovla (tel: +99412 505-95-11) əlaqə saxlamaq mümkündür.

**Tender Komissiyası.**

## ASTARA RAYON İCRA HAKİMİYYƏTİNİN

### ASTARA ŞƏHƏR İNZİBATİ ƏRAZİ DAİRƏSİ ÜZRƏ NÜMAYƏNDƏLİYİ

# KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Astara şəhəri ərazisində küçələrin işıqlandırılması üçün elektrik mallarının satınalınması

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 27.09.2018-ci il tarixinədək qəbul olunur. Maraqlanan təşkilatlar 0252251268 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan:** *Astara şəhəri, Azərbaycan küçəsi 15.*

## Balakən Rayon İcra Hakimiyyətinə bərk inventarın alınması barədə

## BİLDİRİŞ

Balakən Rayon İcra Hakimiyyəti bərk inventarın satınalınmasını kotirovka sorğu üsulu ilə həyata keçirir. Sənədlər 19 sentyabr 2018-ci il 18:00-a kimi qəbul olunur.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi anbar stellajlarının alınması və quraşdırılması işlərinin satınalınması üzrə

# AÇIQ TENDER ELAN EDİR

| Tender 1 (bir) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Anbar stellajlarının alınması və quraşdırılması | 300,00 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımı maliyyə və texniki imkanlara malik olmalıdır.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Xocahəsən-Lökbatan yolu, 7-ci km qərbi ünvanında yerləşən Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsinin inzibati binasından əldə edə bilərlər.

*Fövqəladə Hallar Nazirliyi*
*Maddi-Texniki Təchizat İdarəsi*
*VÖEN: 1401347471*
*H/h: AZ11CTRE00000000000002658402*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*Kod: 210005*
*VÖEN: 1401555071*
*M/h: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T BİK: CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Əlaqə telefonu: (012) 512-47-62**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu,nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 1 ay müddətində icra olunmalıdır.

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 19 oktyabr 2018-ci il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafiki isə möhürlənmiş ikiqat zərfdə 29 oktyabr 2018-ci il saat 17:00-dək Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərf açılmadan geri qaytarılacaqdır.

Tender təklifində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 30 oktyabr 2018-ci il tarixində, saat 11:00-da Bakı şəhəri, Xocahəsən-Lökbatan yolu, 7-ci km qərbi ünvanında yerləşən Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsinin inzibati binasında açılacaqdır.

İddiaçı və ya onun təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər zərflərin açılışında iştirak edə bilər.

**Tender Komissiyası.**

TƏKRAR

## Azərbaycan Tibb Universiteti 2018-ci il üçün aşağıda göstərilən 4 Lot üzrə

# AÇIQ TENDER ELAN EDİR

**Tender 4 Lot üzrə aparılır:**

**Lot-1** "Azərbaycan Tibb Universitetinin 3 saylı tələbə yataqxanasının təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması"

**Lot-2** "Azərbaycan Tibb Universitetinin Nəsimi rayonu S.Vurğun küçəsi 107 ünvanda yeni inşa edilmiş qazanxananın qaz xəttinin çəkilişi"

**Lot-3** "Azərbaycan Tibb Universitetinin korpuslarında avtomatik idarəetmə sisteminin və turniketlərinin quraşdırılması"

**Lot-4** "Azərbaycan Tibb Universitetinin Anatomiya kafedrasının kremasiya sobasının cari təmiri"

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər. 4 Lot üzrə görüləcək işlər 2018-ci il ərzində yerinə yetirilməlidir.

Təkliflərin qiymətləndirilməsində və müqayisəsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-texniki şərtlərin yerinə yetirilməsi aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 4 LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Ənvər Qasımzadə küçəsi-14 ünvanda yerləşən Azərbaycan Tibb Universitetindən ala bilərlər.

**Əlaqələndirici şəxs: Əhmədov Tağı Rəcəb oğlu, telefon: 597-42-60**
**Lot-1 üzrə cəmi - 70,00 manat**
**Lot-2 üzrə cəmi - 100,00 manat**
**Lot-3 üzrə cəmi - 300,00 manat**
**Lot-4 üzrə cəmi - 50,00 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Təşkilat: Azərbaycan Tibb Universiteti VÖEN: 1400457111*
*H/hesab AZ96AİİB38060019440137243111*
*Bank: Kapital Bank ASC Nəsimi filialı*
*VÖEN Bank: 9900003611*
*Kod: 200112*
*M/hesabı: AZ37NABZ01350100000000001944*
*S.V.İ.F.T. Bik: AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*

*-tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*

*-İddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçının işləri yerinə yetirilməsi üçün lisenziya.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (rus və ya ingilis dilində olan təkliflərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Bütün iddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 01 oktyabr 2018-ci il tarixədək, tender təkliflərini və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 08 oktyabr 2018-ci il saat 17:00-dək Azərbaycan Tibb Universitetinə (Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi-14) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 09 oktyabr 2018-ci il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## "Tərtər Konserv" ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağı 30 sentyabr 2018-ci il tarixində saat 11.00-da Tərtər rayonu Ələsgərli kəndində keçiriləcəkdir.

İclasın gündəliyinə aşağıdakı məsələ durur:

**1.** İdarəetmə orqanının formalaşdırılması.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

**"Tərtər Konserv" ASC-nin icra orqanı.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

Lənkəran rayon aqrar islahat komissiyasının qərarı ilə Vilvan kəndində Əzimov Musarza Mirzəcan oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0071; KOD 80200038) itdiyi üçün etibarsız sayılır.

Astara Rayon Dövlət Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən 25 mart 2005-ci il tarixdə Şiyəkəran kənd sakini Cəbiyev Barat Bəhmən oğluna verilmiş 32 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 2 iyul 1999-cu il tarixli 18 nömrəli qərarı ilə Astara şəhər sakini Mehdiyeva İlqanə İbrahim qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 1500 A; KOD 80101004) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 2 iyul 1999-cu il tarixli 18 nömrəli qərarı ilə Astara şəhər sakini Abiyeva Firuzə Amir qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 376 A; KOD 80101004) itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tikinti-iqtisad fakültəsinin dekanlığı, Sənayenin təşkili və idarə edilməsi kafedrasının professor-müəllim heyəti kafedranın Baş müəllimi**

**NİYAZİ SOLTAN oğlu SOLTANOVUN**

**vəfatından kədərləndiklərini bildirir, ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

TƏKRAR

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Cəlilabad rayonu Göytəpə qəsəbəsi ərazisində yerləşən "N" saylı hərbi hissənin əsaslı tikintisi işlərinin satınalınması məqsədilə

# AÇIQ TENDER ELAN EDİR

| Tender 1 (bir) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Cəlilabad rayonu Göytəpə qəsəbəsi ərazisində yerləşən "N" saylı hərbi hissənin əsaslı tikintisi işləri | 3100 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasından ala bilərlər.

**Hesab: Dövlət Xəzinədarlığı Agentliyi kod: 210005; VÖEN 1401555071; M/h: AZ41NABZ01360100000000003944; S.W.İ.F.T BİK: CTREAZ22; Dövlət Sərhəd Xidməti VÖEN 1700360581; H/h: AZ19CTRE00000000000002388501; XHK 142319 2388501(2310) fond 3**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Əlaqə telefonu: (012) 498-01-36**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından və Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondundan arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır *(xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 01 oktyabr 2018-ci il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafiki isə möhürlənmiş ikiqat zərfdə 09 oktyabr 2018-ci il tarixə saat 16:00-dək Dövlət Sərhəd Xidmətinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təkliflərində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 10 oktyabr 2018-ci il tarixdə, saat 15:00-da Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasında açılacaqdır. İddiaçı və ya onun notarial qaydada təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər tender prosedurunun açılışında iştirak edə bilərlər.

**Dövlət Sərhəd Xidmətinin**
**Tender Komissiyası.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Əli SADIQOV

● Çapa imzalanmışdır
11.09.2018